**Mustafayeva Ə.Ə.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.60.386-404**

# Azərbaycan Resublikasının ailə qanunvericiliyi üzrə ər-arvad arasında əmlak bölgüsünün bəzi məsələləri

**Xülasə**: Ailə üzvləri arasında münasibətlər bir-birinə sevgi, qarşılıqlı hörmət, qayğı və diqqət əsasında qurulduqda ər-arvadın hüquq və vəzifələri, o cümlədən əmlakla bağlı münasibətləri demək olar ki, mübahisə və ya müzakirə predmeti olmur. Belə şəraitdə ər-arvad nəinki özlərinin birgə ümumi əmlakından, hətta hər birinə ayrıca məxsus olan əmlakdan öz şəxsi əmlakı kimi istifadə edir. Lakin ailə həyatı normal məcrası ilə getmədikdə, ər-arvad arasında dava-dalaş, mübahisə adi hal olduqda, ümumiyyətlə, nikahın davam etdirilməsi mümkünsüz olduqda dövlətin bu münasibətlərə müdaxilə etmək zərurəti yaranır. Qanunvericilikdə ər-arvadın ailə həyatı, o cümlədən əmlak münasibətləri sferasında bərabər hüquqlu olmasının təsbit edilməsinin əhəmiyyəti özünü məhz belə münaqişəli vəziyyətlərdə göstərir.

Respublikamızda 1 iyun 2000-ci il tarixədək qüvvədə olmuş Nikah və Ailə Məcəlləsində ər-arvadın nikahadək və nikah zamanı əldə edilmiş əmlak növləri fərqləndirilirdisə, hazırda qüvvədə olan 28 dekabr 1999-cu il tarixli Ailə Məcəlləsi əmlak hüquq münasibətlərini müəyyən etmək imkanını ər-arvadın öz ixtiyarına vermişdir. Ər-arvadın əmlakının qanuni rejimi ilə yanaşı, nikah müqaviləsinin bağlanılması yolu ilə müqavilə rejimi də müəyyən edilmişdir. Bununla da ər-arvadın əmlak münasibətlərinin imperativ hüquqi tənzimlənməsi dispozitiv hüquqi tənzimlənmə ilə əvəz edilmişdir.

Ailədə əmlak münasibətlərinin tənzimlənməsində müqavilə formasından istifadə etmə bu huququn subyektləri olan ər-arvada əmlak rejimlərini müstəqil

[♦] **Mustafayeva Əsmər Ənvər qızı -** AMEA Hüquq və İnsan haqları İnstitutunun doktorantı (Azərbaycan). E-mail: Asmer79@gmail.com

təyin etmək, ailə həyatında qarşılaşa biləcəkləri çoxsaylı tələbatlarının nəzərə alınmasına imkan verir. Nikah müqaviləsi həmçinin ailə hüquqi mübahisələrin həllində tərəflərə öz şərtlərini müəyyən etmək və tətbiq etmək imkanını yaradır. Ər-arvadın əmlak münasibətləri onların arasında mövcud olan qeyri-əmlak münasibətlərə və bu münasibətlərin səmərəli inkişafına da öz təsirini göstərə bilir. Bu baxımdan ər-arvad arasında əmlak mübasibətlərinin düzgün hüquqi tənzimlənməsinin hər bir ailə həyatının sabitliyi üçün mühüm əhəmiyyəti vardır.

**Açar sözlər**: nikah; ailə; əmlak münasibətləri; ümumi mülkiyyət; qanuni rejim; nikah müqaviləsi; əmlak bölgüsü.

Azərbaycan Respublikası qanunvericiliyində ər-arvadın birgə mülkiyyət münasibətlərinin həm mülki, həm də ailə qanunvericiliyi ilə tənzimlənməsi müəyyən edilmişdir. Ər-arvadın mülkiyyət münasibətlərini tənzim edən mülki və ailə qanunvericiliyi normaları bir-birinə münasibətdə ümumi və xüsusi normalar kimi çıxış edir. Ər-arvad arasında əmlakın bölgüsü kreditorun tələbi ilə də aparıla bilər. Belə ki, mülki qanunvericilik şəxsin öz öhdəliklərinə görə mülkiyyətində olan əmlakı ilə birgə məsuliyyət daşımasını nəzərdə tutur.

M.D.Dəmirçiyevanın fikrincə, kreditorun ümumi əmlakın bölünməsinə dair tələbi ər-arvaddan birinin öhdəliklərini ödəməsi üçün şəxsi əmlakının dəyərinin kifayət etməməsi ilə bağlı olur. Müəllifə görə, bu öhdəliklər müxtəlif əsaslardan (aliment, dəymiş zərərin ödənilməsi  və s.) yarana bilər [3, s. 214]. Ailə mənafeyindən ötrü deyil, şəxsi şəxsi məqsədlər naminə və ya nikaha daxil olduğu müddətədək üzərinə mülki-hüquqi öhdəliklər götürmüş ər-arvada münasibətdə kreditorun tələb hüququ təbii ki, ilk növbədə, onun özünün şəxsi əmlakına, lakin həmin əmlak yetmədikdə, ər-arvadın ümumi birgə mülkiyyətində ona məxsus olan payına yönəldilir ki, bu da əslində mahiyyət etibarı ilə ər-arvadın ümumi müıkiyyətinin bölünməsi sayılır. Ailə Məcəlləsinin “Ödəmənin ər-arvadın əmlakına yönəldilməsi” adlanan” 41-ci maddəsindən başqa, bu məsələ öz həllini

Mülki Məcəllənin "Ümumi mülkiyyətdəki paya tutmanın yönəldilməsi" adlı 224-cü maddəsində tapmışdır. Həmin maddəyə əsasən, paylı və ya birgə mülkiyyət mülkiyyətçisinin başqa əmlakı kifayət etmədikdə onun kreditoru borclunun ümumi əşyadakı payına tutmanın yönəldilməsi üçün həmin payın ayrılmasını tələb edə bilər. Əgər payın naturada ayrılması mümkün deyildirsə və ya paylı və ya birgə mülkiyyətin qalan iştirakçıları buna etiraz edirlərsə, kreditorun ixtiyarı vardır ki, borclunun öz payını bazar qiyməti ilə ümumi mülkiyyətin qalan iştirakçılarına satmasını və satışdan əldə edilmiş vəsaitin borcun ödənilməsinə yönəldilməsini tələb etsin. Ümumi mülkiyyətin qalan mülkiyyətçiləri borclunun payını almaqdan imtina etdikdə kreditorun ixtiyarı var ki, tutmanın borclunun ümumi mülkiyyət hüququndakı payına onun açıq hərracdan satılması yolu ilə yönəldilməsini məhkəmə qaydasında tələb etsin. Ailə ehtiyacları, mənafeyindən doğan öhdəliklər solidar öhdəlik sayılır və bu halda tutma tələbi ər-arvadın ümumi əmlakına yönəldilir. Ümumi əmlak kreditor tələbin ödənilməsi üçün kifayətedici olmadıqda, onda tutma obyekti dairəsinə ər-arvadın hər birinin ayrıca əmlakı daxil ola bilər. Ər-arvaddan birinin ayrıca əmlakı ilə borcun ödənilməsi mümkün olmadıqda, tələb hüququ digərinin ayrıca əmlakına yönəldilir.

Mülki qanunvericilikdə yetkinlik yaşına çatmayan uşaqların vurduğu zərərə görə ər-arvadın məsuliyyət daşıdığı müəyyən edilmişdir. Ailə Məcəlləsinin 41.4-cü maddəsinə əsasən, bu halda ödəmə tələbinin icrası, ilk növbədə, ər-arvadın ümumi əmlakına, bu əmlak yetmədikdə isə, ər-arvadın hər birinin şəxsi əmlakına yönəldilir. Yetkinlik yaşına çatmayan uşaqların vurduğu zərərlə bağlı məsələnin həllinə diferensial yanaşmaq lazılmdır. Belə ki, burada 14 yaşınadək olan yetkinlik yaşına çatmayanlar ilə 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanları bir-birindən ayırmaq lazımdır. Mülki qanunvericilikdə həm 7 yaşınadək olan yetkinlik yaşına çatmayanlar, həm də 14 yaşınadək olan yetkinlik yaşına çatmayanlar azyaşlı sayır (Mülki Məcəllənin 28.3 və 1103.1-ci maddəsi). 7 yaşınadək olan yetkinlik yaşına çatmayanlar fəaliyyət qabiliyyəti olmayan, 7

yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar isə məhdud fəaliyyət qabiliyyəti sayılırlar.

Mülki Məcəllənin 1103-cü maddəsinə əsasən, 14 yaşınadək olan yetkinlik yaşına çatmayanın vurduğu zərər üçün onun valideynləri (ər-arvad – M.Ə.), zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, məsuliyyət daşıyırlar. Mülki Məcəllənin 1104-cü maddəsinə əsasən isə, 14 yaşdan 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar vurmuş olduqları zərərə görə ümumi əsaslarla müstəqil məsuliyyət daşıyırlar. Lakin onların zərərin əvəzini ödəmək üçün yetərli gəliri və ya başqa əmlakı olmadıqda zərərin hamısını və ya çatışmayan hissəsini onun valideynləri (ər-arvad – M.Ə.), zərərin onların təqsiri üzündən yaranmadığını sübuta yetirməsələr, ödəməlidirlər. Bu halda valideynlərin subsidiar məsuliyyəti yaranır.

Valideynlər yetkinlik yaşına çatmayan uşaqlarının vurmuş olduğu zərərə görə öhdəliyi icra etməmişlərsə, onların bu maddi məsuliyyəti həmin uşaqların yetkinlik yaşına çatmasından asılı olmayaraq və hətta onlar bu yaşda artıq zərərin əvəzini ödəmək üçün yetərli əmlak əldə etdikləri halda belə xitam olunmur. Bu haqda Mülki Məcəllənin 1103.4-cü maddəsində birbaşa göstəriş vardır. Ümumiyyətlə, yetkinlik yaşına çatmayan uşaqların vurmuş olduqları zərərə görə valideynlərin məsuliyyəti aşağıdakı şərtlər mövcud olduqda xitam olunur:

- uşaqların yetkinlik yaşına çatması;
- uşaqların yetkinlik yaşına çatanadək zərərin əvəzini ödəmək üçün yetərli gəlir və ya başqa əmlakının olmaları;
- uşaqların yetkinlik yaşına çatanadək tam fəaliyyət qabiliyyəti əldə etmələri (nikaha daxil olma, emansipasiya) [5, s. 48].

Ümumi əmlakın bölünməsi ilə bağlı işə baxılması zamanı ər-arvaddan birinin digərinin razılığı olmadan və ailənin ümumi mənafeyi ziddinə birgə əmlakın hər hansı hissəsini özgəninkiləşdirməsi, gizlətməsi, sərf etməsi müəyyən olunduqda, məhkəmə qarşı tərəfin itirilmiş bu mənafeyini həmin ölçüdə nəzərə alır. Ailə

münasibətlərinə faktiki xitam verilmiş mübahisələrdə məhkəmə ümumi təsərrufatın birgə idarə olunmasınadək əldə olunmuş əmlakın bölgüsü məsələlərini həll edir.

Ailə qanunvericiliyi yetkinlik yaşına çatmamış uşaqların mənafeyini bütün hallarda nəzərə alır. Qanunvericilik ailədə onların tələbatının ödənilməsi üçün əldə olunmuş şeylərin (geyim, paltar, məktəb və idman ləvazimatları, kitabxana və s.) ər-arvadın əmlak mübahisəsində bölgünün predmetinin olmadığını müəyyən etmişdir. Ailə Məcəlləsinin 36.6-cı maddəsinə əsasən, yetkinlik yaşına çatmayan uşaqlarının tələbatının ödənilməsi üçün olan şeylər bölgü zamanı əvəzi (kompensasiya) ödənilmədən uşaqları ilə birgə yaşayan valideynə verilir. Yetkinlik yaşına çatmayan ümumi uşaqların adına ər-arvadın hər ikisi və ya biri tərəfindən qoyulmuş əmanətlər də əmlak bölgüsü zamanı nəzərə alınmır. Çünki həmin əmanət yalnız adına qoyulmuş uşağa məxsus sayılır (Ailə Məcəlləsinin 36.7-ci maddəsi). Əmlakın bölgüsü zamanı yetkinlik yaşına çatmayan uşaqlar yetkinlik yaşına çatmış olduqda, məhkəmə bu meyara görə həmin uşaqların bir yerdə qaldığı ər-arvadın payını artırmaqda haqlı olmayacaqdır.

Ər-arvadın ümumi əmlakı, müqavilədə başqa hal nəzərdə tutulmadıqda, bərabər bölünür (Ailə Məcəlləsinin 37.1-ci maddəsi). Bu norma Azərbaycan Respublikası Mülki Məcəlləsinin 223.3-cü maddəsinə uyğundur. Həmin normaya görə, ümumi əşya bölünərkən və ondan pay ayrılarkən mülkiyyətçilərin payları, əgər onların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, bərabər sayılır. Ər-arvadın payların bərabər bölüşdürülməməsini nəzərdə tutan razılaşmalara nikah müqaviləsini, əmlakın bölgüsü barədə öz aralarında könüllü şəkildə bağladıqları müqaviləni aid etmək olar. Təkcə faktik olaraq mövcud olan deyil, həmçinin üçüncü şəxslərin ixtiyarında olan (məsələn, icarə müqaviləsi üzrə) əmlak bölgünün predmetinə daxildir.

Qanunvericilik həmçinin ər-arvad arasında əmlakın bərabər bölgüsündən kənara çıxma hallarını da müəyyən etmişdir ki, onlara aşağıdakılar aiddir: 1) yetkinlik yaşına çatmayan uşaqların mənafeyi; 2) ərin (arvadın) diqqətəlayiq

mənafeyi; 3) ər-arvaddan birinin üzürsüz səbəbdən gəlir əldə etməməsi; 4) ər-arvaddan birinin birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etməsi (Ailə Məcəlləsinin 37.2-ci maddəsi). Ərin və ya arvadın diqqətəlayiq mənafeyinə, məsələn, onların peşə maraqlarını aid etmək olar (məsələn, musiqi aləti onunla məşğul olan tərəfə verilir). Tamamilə mümkündür ki, ər və ya arvad xəstəlik, qocalıq, iş tapa bilməməsi və ya hər hansı digər üzrlü səbəblərdən gəlir əldə edə bilməsin və bu səbəbdən ümumi mülkiyyətin formalaşmasında iştirak payı az olsun. Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya ərinin işləməyə icazə verməməsi səbəbindən arvadın müstəqil qazancı olmaya bilər.

Əlbəttə, bu da tamamilə mümkündür ki, ər və ya arvad ümumi əmlakı qəsdən ailə mənafeyinə zidd, əyyaş həyat tərzinə, eyş-işrətə, spirtli içkilərin və ya narkotiklərin qəbuluna, qumar oyunlarına və s. bu kimi hallara israf etsin. Burada əsas şərt vəsatin çox xərclənməsi deyildir (məsələn, vəsait ər-arvadın birinin hobbisi olan bahalı kolleksiyaya da xərclənə bilər), əsas şərt vəsaitin ailə mənafeyinin ziddinə sərf edilməsidir, yəni ailənin zəruri ehtiyaclarının ödənilməsinə deyil, ailə mənafeyinə ziyan vuran xərclərə israf edilməsidir. Ər-arvaddan biri hər hansı üzrlü səbəb olmadan uzun müddət ərzində ailənin ümumi mənafeyi naminə hər hansı gəlir əldə etməyə bilər. Məlum olduğu kimi, qanunvericiliyə görə heç kəs zorla əməyə cəlb edilə bilməz, əmək fəaliyyəti ilə məşğul olma hər bir insanın özünün arzu, istəyindən doğan hüququdur. Lakin bu cür halların ər-arvadın əmlak bölgüsü ilə bağlı mübahisələrin həlli zamanı nəzərə alınmamasının ədalətli olmadığını qeyd etmək lazımdır. Şübhəsiz, bu zaman həmin hallara ər-arvadın özünün münasibəti müəyyənedici əhəmiyyət kəsb edir. Məsələn, xüsusən, bizim milli mentalitet şəraitində daha çox rast gəlinən ərin arvadını işləmək istəyinə qarşı çıxması səbəbindən işləməməsi və evə qazanc gətirməməsi halında əmlak bölgüsü zamanı ərin bu fakta istinad etməsi məhkəmə tərəfindən qəbul edilə bilməz. Qeyd edilənlərə əsasən, qanunvericilikdə ər-arvad arasında

ənlakın bərabər bölgüsü prinsipindən kənara çıxma hallarınının müəyyən edilməsini təqdirəlayiq hesab edirik. Eyni zamanda nəzərə almaq lazımdır ki, məhkəmə ər-arvad arasında ümumi əmlakın bölgüsündə bərabərlik prinsipindın kənara çıxdıqda, qətnamədə bunun motivini mütləq surətdə əsaslandırmalıdır.

Ailə Məcəlləsinin 37.3-cü maddəsinə əsasən, ər-arvad arasında əmlak bölünərkən onların ümumi borcları paylarına uyğun olaraq müəyyən edilir. Ər-arvad arasında əmlakın bölgüsü natural qaydada aparılır və məhkəmə ər-arvada hansı əmlakın verilməli olmasını müəyyən edir. Bu zaman əmlakın xüsusiyyəti (bölünə bilən, yoxsa bilinməyən olması, dəyəri və s.), tərəflərin istəyi nəzərə alınır, lakin onlar arasında bu barədə razılaşma əldə olunmadıqda, mübahisə məhkəmə tərəfindən həll olunur. Məhkəmə, şübhəsiz, ər-arvadın hər birinin ehtiyac duyduğu əşyaların ona verilməsini məqsədəuyğun sayır, onların peşə fəaliyyətini nəzərə alır. Yaşayış evi (mənzil), adətən, yetkinlik yaşına çatmamış uşaqların verildiyi tərəfə təqdim edilir. Lakin bütün əşyaların naturada bölgüsünün həyata keçirilməsi mümkün olmur. Əgər ümumi birgə mülkiyyət olan yaşayış evində iki ayrıca giriş yeri olmursa, mənzildə tərəflərin hər biri üçün ayrıca yataq otağı, mətbəx, hamam funksiyalarının həyata keçirilməsinə imkan verən yerlər olmursa və ya bunları yaratmaq mümkün olmursa, şübhəsiz, yaşayış evinin və ya mənzilin natural bölgüsü aparılmır. Odur ki, ər-arvad arasında əmlak bölgüsü zamanı onlardan birinə ona çatası payın dəyərini aşan əmlakın verilməsi halları mümkün olur. Bu halda məhkəmə bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiyanın verilməsini müəyyən edir. Ailə Məcəlləsinin 36.4-cü maddəsində bu məsələ özünün həllini tapmışdır. Həmin maddəyə əsasən, ər-arvaddan birinə, dəyəri ona çatası payın dəyərini aşan əmlak verildikdə, bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya verilə bilər. Hüquq nəzəriyyəsində "kompensasiya" sözü, adətən, vurulan zərərin əvəzinin ödənilməsi mənasında istifadə olunur. Aydındır ki, burada müvafiq məbləğdə pul və ya başqa kompensasiyanı verməli olan subyekt ona çatası payın dəyərini aşan əmlakın

verildiyi ər və ya arvaddır. Lakin qanunda bu fikir tam aydın ifadə edilməyib, elə başa düşülür ki, müvafiq məbləğdə pul və ya başqa kompensasiya hər hansı şəxsin, hətta dövlətin hesabına verilə bilər. Odur ki, Ailə Məcəlləsinin 36.4-cü maddəsinin məzmun baxımından müəyyənliyini daha da artırmaq üçün burada ikinci cümlədə olan "digərinə" sözündən sonra "qarşı tərəfin hesabına" ifadəsinin əlavə olunmasını məqsədəuyğun hesab edirik.

Ər-arvadın peşə fəaliyyəti ilə bağlı olan əmlak növləri (məsələn, paltar tikişi dəzgahı, kompyuter dəsti, musiqi aləti və s.) onların ayrıca mülkiyyəti sayılmır. Bu, adətən, həmin növ əmlakların ümumi birgə mülkiyyətin formalaşdırılmasında iştirak payının az olmaması, onların alınmasına xeyli vəsaitin xərclənilməsi və ayrıca mülkiyyətə aid edilməsinin digər tərəfin mənafeyinə mühüm zərər vura biləcəyi ilə əlaqələndirilir. Bununla belə, Azərbaycan Respublikasının Ailə Məcəlləsində ər-arvadın peşə fəaliyyəti ilə bağlı olan əmlak növlərinin ümumi mülkiyyətə aid edilməsinin bilavasitə göstərilmədiyini qeyd etmək lazımdır. Bəzi ölkələrdə buna dair ayrıca norma vardır. Məsələn, Belarus Respublikasının 9 iyul 1999-cu il tarixli Nikah və Ailə Məcəlləsinin 25-ci maddəsi "Ər-arvadın peşə məşğuliyyəti əşyaları" adlanır. Həmin maddəyə əsasən, ər-arvadın nikah müddətində əldə etdikləri peşə məşğuliyyəti əşyaları (musiqi alətləri, xüsusi kitabxana, tibbi təyinat şeyləri, tibb texnikası və s.), nikah müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, onların ümumi birgə mülkiyyəti sayılır. Əmlakın bölgüsü zamanı məhkəmə peşə məşğuliyyəti əşyalarını onu istifadə edən ər-arvada, ümumi əmlakdakı payının azaldılması və ya üzərinə dəyərinin digər tərəfə kompensasiya edilməsi vəzifəsinin qoyulması şərti ilə, verə bilər [4]. Ukrayna Respublikasının 10 yanvar 2002-ci il tarixli Ailə Məcəlləsinin 61-ci maddəsinin 4-cü bəndində də nikah müddətində ər-arvadın peşə məşğuliyyəti üçün alınmış şeylər onların ümumi birgə mülkiyyət hüququnun obyektləri sırasına aid edilmişdir [6].

Qeyd edək ki, respublikamızın Ailə Məcəlləsinin nə ər-arvadın birgə mülkiyyətini nəzərdə tutan 32-ci, nə də ər-arvadın hər birinin mülkiyyətini nəzərdə

tutan 34-cü, nə də ər-arvadın ümumi əmlakının bölünməsi məsələlərini tənzim edən 36 və 37-ci maddələrində ər-arvadın peşə məşğuliyyəti əşyaları barədə heç nə göstərilməmişdir. Biz ər-arvadın nikah müddətində əldə etdikləri peşə məşğuliyyəti əşyalarının onların ümumi birgə mülkiyyəti sayılması mövqeyini düzgün sayırıq. Fikrimizi sadə misallarla izah edək. Qadın (arvad) paltar tikişi ustasıdır, fərdi əmək fəaliyyəti ilə məşğul olur, evində tikiş dəzgahında paltar tikişi ilə məşğul olaraq, ailəsini dolandırır. Yaxud kişi (ər) evdə stomotoloq kimi fəaliyyət göstərməsi üçün lazım olan tibb avadanlıqları almış və bu əməyi ilə ailəsini dolandırır. Yaxud pianoçu, royal ifaçısı evində fərdi qaydada şagirdlərə müəyyən haqq müqabilində bu alətlərdə çalmağı öyrədir. Bu siyahını xeyli uzatmaq olar. Biz nikah müddətində əldə edilmiş bu növ peşə məşğuliyyəti əşyalarının ona görə ümumi birgə mülkiyyət kimi tanınmasının tərəfdarıyıq ki, bu əşyalar fərdi istifadə şeyləri olsa da, Ailə Məcəlləsinin 34.2-ci maddəsində göstərilən geyim, ayaqqabı kimi bir nəfərə xidmət etmir, bütün ailəyə xidmət edir. Odur ki, respublikamızın Ailə Məcəlləsində bu barədə müvafiq müddəanın təsbit olunmasını məqsədəuyğun sayırıq. Ər-arvadın peşə məşğuliyyəti əşyalarını ümumi birgə mülkiyyətə aid etdiyimizdən, həmin müddəanın Ailə Məcəlləsinin 32-ci maddəsində nəzərdə tutulmasını düzgün sayırıq.

Qeyd edilənlərə əsasən, Ailə Məcəlləsinə aşağıdakı məzmunda 32.4-cü maddənin əlavə olunmasını təklif edirik: “32.4. Ər-arvadın nikah müddətində əldə etdikləri peşə məşğuliyyəti əşyaları (musiqi alətləri, tibb avadanlıqları, tikiş maşını və s.), nikah müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, onların ümumi birgə mülkiyyəti sayılır. Ər-arvadın ümumi əmlakının bölünməsi zamanı məhkəmə həmin peşə məşğuliyyəti əşyalarını onu istifadə edən ər-arvaddan birinə, ümumi əmlakdakı payının azaldılması və ya digər tərəfə dəyərinin kompensasiya edilməsi vəzifəsinin qoyulması şərti ilə, verə bilər.”

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, "Hüquq Yayın Evi", 2016.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi [Elektron mənbə]/ http://www.e-qanun.az/ code/8
3. Dəmirçiyeva M.D. Azərbaycan Respublikasının ailə hüququ. Bakı, Qanun, 2008.
4. Кодекс Республики Беларусь о Браке и Семье 278-З от 9.07.1999 г. [Электронный ресурс]. Режим доступа: http://kodeksy-by.com/ kodeksrb_ o_brake_i_semje.htm
5. Семейное право: Учебник / Б.М. Гонгало, П.В. Крашенинников, Л.Ю. Михеева и др.; под ред. П.В. Крашенинникова. М.: Статут, 2008.
6. Семейный кодекс Украины [Электронный ресурс]. Режим доступа: http://www.ubc.ua/Law/simcod_r.html